# Azərbaycanın gözü




**Təməli 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulmuş Şuşa bu gün yenidən dirçəlir. Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindəndir. Ona görə də 2020-ci il noyabrın 8-də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərinin işğaldan azad edilməsi Azərbaycanın Vətən müharibəsindəki uğurlu əks-hücum əməliyyatları sırasında ən mühüm tarixi hadisə və böyük hərbi qələbə oldu. Şuşanın işğaldan azad edilməsi Zəfər günü kimi tarixə yazıldı.**

Prezident İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində deyib: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!".

Şuşaya səfəri zamanı ölkə başçımız bildirib ki, Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. 30 illik işğal müddətində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev-muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də olub. Prezident İlham Əliyev illər öncə demişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Ölkə başçımızın bu sözləri artıq reallığa çevrilib. Dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerinə qoyulub. 2021-ci ilin 7 may tarixində Prezident İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında sərəncam imzaladı. Dövlət başçısı bəyan etdi ki, Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

Ulu Öndərin ən sevdiyi məkanlardan olan Şuşa Heydər Əliyevin təbirincə desək, Azərbaycanın gözüdür. Ümummilli Liderin adını daşıyan fond bu gün həmin gözəl məkanın daha da gözəlləşməsi, dirçəlməsi üçün səy göstərir. 2021-ci ildə Heydər Əliyev Fondu tərəfindən Şuşada "Xarıbülbül" musiqi festivalı və Vaqif Poeziya Günləri yenidən təşkil olundu. Şuşa şəhəri festivala "Türk dünyasının mədəniyyət paytaxtı" kimi ev sahibliyi etdi. Üç gün (9-11 may) davam edən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Türkmənistan, Özbəkistan (o cümlədən bu ölkənin Qaraqalpaqıstan Muxtar Respublikası), Macarıstan, Moldovanın Qaqauz muxtariyyəti, Rusiya Federasiyasının Altay, Xakasiya, Saxa (Yakutiya), Tatarıstan, Tıva respublikaları, Şimali Kipr Türk Cümhuriyyəti təmsil olundu. Festivalın baş səhnəsi isə ənənəvi olaraq Cıdır düzündə quruldu.

2022-ci il isə Azərbaycanda "Şuşa İli" elan edildi. Həmin il şəhərin taleyində olduqca əlamətdar idi. Çünki Şuşanın həm də 270 illiyi tamam olurdu. Ölkə başçısı öz çıxışında demişdi: "Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasını sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa İli" elan edirəm". Bu günə qədər Heydər Əliyev Fondunun dəstəyi ilə Şuşada bir çox məscidlər, muzeylər, otel və Yaradıcılıq Mərkəzinin açılışı baş tutub. Hazırda Şuşada bir sıra qeyri-yaşayış və yaşayış tikililərinin, Mehmandarovların malikanə kompleksinin, həmçinin Atatürk, Heydər Əliyev və 8 Noyabr küçələrinin, Milli Xalça Muzeyinin, Otel-Konqres Mərkəzi Kompleksinin, Saatlı və Yuxarı Gövhər Ağa məscidlərinin açılışı edilib.

Ötən ilin sentyabrında İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında musiqi beşiyimiz Şuşa şəhəri yenidən diqqət mərkəzində olub. Belə ki, 2024-cü il üçün ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" proqramı üzrə namizədliyi irəli sürülüb. Konfrans iştirakçılarının yekdil qərarı ilə Qarabağımızın incisi Şuşa şəhəri "2024-cü il üzrə İslam dünyasının mədəniyyət paytaxtı" adına layiq görülüb. Şuşa beynəlxalq tədbirlərə ev sahibliyi etməklə yanaşı, İslam dünyasının mədəniyyətini də özündə əks etdirir. Bütün bu addımlar həm Şuşamızın, həm də bütünlükdə Azərbaycan mədəniyyətinin inkişafına misilsiz töhfələr verir.

**Töhfə SƏMƏDOVA,**
**"Respublika".**